Yeni Dizaynlı 5 dollarlıq Əskinaz

Daha təhlükəsiz. Daha zərif. Daha etibarlı.

# Verilənlər Cədvəli

## Yeni 5 dollarlıq əskinaz haqqında faktlar

**5 dollarlıq əskinazın yeni dizaynından nə gözləmək olar?**

- **Eyni dəyər:** Həm yeni həm də köhnə dizaynlı əskinazlar tam dəyərləri ilə etibarlıdırlar. Əslində 1861-ci ildən bəri ABŞ tərəfindən buraxılan hər bir əskinaz bugün də öz qüvvəsini itirməyib və tam etibarlıdır.
- **Amerikan baxışı və hissləri:** Yeni dizaynlı kağız pullar Amerikanlılar üçün səciyyəvi olaraq qalacaq. Yeni əskinazlar eyni ölçüdədir və köhnə əskinazlarla eyni ancaq yüksək keyfiyyətli portretlərdən, tarixi təsvirlərdən istifadə edir.
- **Fərasətli olun; yeni dizaynlı 5 dollarlıq əskinazın təhlükəsizlik əlamətlərini öyrənin:** İstehlakçılar nağd pulları qəbul edərkən onları yoxlayaraq əziyyətlə qazandıqları pullarını qoruya bilərlər. İlk dəfə 1990-cı illərdə əlavə edilmiş su nişanı və təhlükəsizlik sapı 5 dollarlıq əskinazın yoxlanmasını asanlaşdırır.
    - Bu əskinazda *iki* su nişanı var. İri rəqəmlə yazılmış “5” su nişanı, köhnə dizaynlı beş dollarlıq əskinazda olan Prezident Linkolnun şəklini əvəz edən şəklin sağındakı boş yerdə yerləşir. İkinci su nişanı – üç kiçik “5”-dən ibarət sütun – yeni 5 dollarlıq əskinaz dizaynına əlavə edilib və şəklin solunda yerləşdirilib.
    - Əskinazı işığa tutun və şəklin sağ tərəfinə şaquli istiqamətdə həkk olunmuş təhlükəsizlik sapını və ya plastik zolağı axtarın. Əgər diqqətlə baxsanız əskinazın hər iki tərəfindən sap boyu “USA 5” sözünü görə bilərsiniz. Təhlükəsizlik sapı ultrabənövşəyi işığın altında mavi rəngə çalır.
- **Mükəmməlləşdirilmiş Əlamətlər:** Keçmiş denominasiyalar kimi yeni 5 dollarlıq əskinaz da zərif fon rənglərini və Amerika azadlıq simvollarını əks etdirir.
    - Əskinazın üz tərəfində Prezident Linkolnun şəklinin və arxa tərəfdə Linkolnun Heykəl vinyetkasının ətrafındakı oval kənarlar götürülüb. Hər iki həkk etmələr mükəmməlləşdirilib.
    - 5 dollarlıq əskinazda azadlıq simvolu ABŞ-ın Böyük Dövlət Möhürüdür (qartal və qalxan).
    - Əskinazın mərkəzində fon rəngi açıq bənövşəyidir və kənarlara doğru boz rəngə çalır.
    - Bönövşəyi ulduzlardan ibarət qövs şəkli və Böyük dövlət möhürünü əhatə edir.
    - İri asan ayırd edilən “5” rəqəmi əskinazın arxa tərəfində aşağı sağ küncdə yerləşir, yeni dizaynda bu rəqəm böyüdülüb və yüksək kontraslı bənövşəyi rəngdə çap edilib. Bu da görməsi zəif olanların denominasiyanı asan ayırd etmələrinə kömək edir.
    - Əskinazın üz tərəfində şəklin solunda və arxa tərəfində Linkolnun Heykəl vinyetkasının sağ tərəfində kiçik sarı “05” lər çap olunub.

# Verilənlər Cədvəli

**ABŞ kağız pullarının toxunulmazlığının qorunması davamlı prosesdir. İctimai məlumatlılığın, qanunların həyata keçirilməsinin və təkmilləşdirilmiş təhlükəsizlik əlamətlərinin birləşməsi pulların saxtalaşdırılmasının qarşısını almaqda kömək edir.**

- Pulların saxtalaşdırılmasının mühüm iqtisadi problem olmamasına baxmayaraq, şəxslər və ya müəssisələr saxta pullar qəbul etdikdə bu onlar üçün əsl itkidir.
- Bütün denominasiyalarda davamlı olaraq dizayn yenilikləri tətbiq edərək, yeni təhlükəsizlik əlamətlərini birləşdirərək hökumət saxtalaşdırılmanın qarşısını almaqda öndə durur.

**Bütün dünya üzrə ictimai məlumatlılıq və təhsil proqramı yeni 5 dollarlıq əskinazın rahat təqdimatını təmin etmək üçün hazırlanmaqdadır.**

- Saxta pulların iqtisadiyyata təsiri minimal olsa da, əgər xalq hər bir denominasiyadakı təhlükəsizlik əlamətlərini tanısa və istifadə edə bilsə saxtalaşdırma ilə daha güclü mübarizə aparmaq olar.
- Bu məlumatlılığı yaratmaq, yeni dizaynlı əskinazların ABŞ-a və bütün dünyaya rahat təqdimatını təmin etmək üçün ABŞ hökuməti beynəlxalq ictimai təhsil proqramı hazırlayır. Bu, ABŞ kağız pullarından istifadə edənlərin yeni dizaynlı 5 dollarlıq əskinazların dövriyyədə olmasını və onun təhlükəsizlik əlamətlərindən necə istifadə etməyin lazım olduğunu öyrənmələrini təmin edir.
- Nağd pul əməliyyatları aparanlar saxta pullarla daha sıx qarşılaşa bilirlər, ona görə də onların təhlükəsizlik əlamətlərin ilə tanış olmaları və bu ələmətlərin istifadəsini bilmələri çox vacibdir. İctimai təhsil proqramı nağd pul əməliyyatları aparanları, nağd əməliyyatlar aparan maşın istehsalçılarını, biznes müəssisələrini, ictimaiyyəti nəzərə alır.  Buna görə də ABŞ hökuməti pərakəndə ticarətçilərin, maliyyə təşkilatlarının və müəssisələrin öz nağd pul əməliyyatçılarına yeni dizaynlı əskinazların təhlükəsizlik əlamətlərini öyrətməsində kömək edir.
- Səlahiyyətli orqanlar ticarət avtomatları və digər nağd əməliyyatlar aparan maşın istehsalçılarına maşınları yeni dizaynlı 5 dollarlıq əskinazları qəbul etməyə nizamlamaları üçün lazım olan məlumatları və yeni əskinazın 13 mart 2008-ci ildə dövriyyəyə buraxılacağı vaxta qədər bu dizayndakı yeniliklər haqqında məlumatları vermək üçün 2006-cı ildə onlarla işləməyə başladı.